# Müqayisə priyomundan istifadə etməklə şifahi nitqin inkişafının pedaqoji əsasları

**Sevinc Ağarəhim qızı Rəhimova**
*pedaqogoka üzrə fəlsəfə doktoru,*
*Bakı Qızlar Universiteti*
**E-mail:** sevinc rahimova@gmailşcom

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.e.d., prof. H.H. Əhmədov

**Açar sözlər:** sinif, bacarıq, tədris, vərdiş, müqayisə, nitq, müəllim, inkişaf, təhsil
**Ключевые слова:** класс, навыки, обучение, привычка, сравнение, речь, учитель, развитие, образование
**Key words:** class, skills, teaching, habit, comparison, speech, teacher, development, education

İbtidai siniflərdə nitq inkişafı üzrə işlərin məzmununun təkmilləşdirilməsi, şagirdlərdə mükəmməl nitq bacarıq və vərdişlərinin formalaşdırılması mühüm problem kimi ana dili təliminin qarşısında durur. Bir qrup psixoloq (109, 120, 130, 154, 159, 175) ibtidai sinif şagirdlərinin idrakı imkanlarının az bir hissəsindən istifadə olunduğunu göstərir. Onların fikrincə, şagirdlərin mövcud imkanları düzgün qiymətləndirilməli, nitq inkişafı üzrə işin məzmunu həmin imkanlar nəzərə alınmaqla müəyyənləşdirilməlidir.

Xüsusi ilə dördillik təlim sistemi üçün hazırlanmış yeni proqram təlim və tərbiyənin inkişaf etdiriləcəyini, təlimin nəzəriyyəsi ilə praktikası arasındakı dialektik vəhdətin nəzərə alınmasını, qazanılan biliklərin müxtəlif şəraitdə praktikaya şüurlu tətbiqini və s. məsələləri tələb edir. Bununla da oxu məşğələləri ibtidai kursu ədəbiyyatdan elmi kursa yaxınlaşdırmış olur. Bu, «Oxu» fənnindən qazanılan biliklərin effektliyini yüksəltməklə, şagirdlərin nitqini inkişaf etdirmək zərurətini irəli sürür. Məktəb təcrübəsində apardığımız araşdırmalar bizə belə qənaətə gəlməyə əsas verir ki, ibtidai siniflərdə müqayisə priyomundan istifadə etməklə şagirdlərin şifahi nitqinin inkişafı üzrə işin məzmununun, həcminin, ən optimal vasitə və yollarının müəyyənləşdirilməsi pedaqoji baxımdan böyük əhəmiyyət kəsb edir.

Müqayisə müxtəlif əşya və hadisələr arasında mövcud olan oxşar və fərqli cəhətləri aşkara çıxardığı kimi, həmçinin ədəbi materialda əksini tapan hadisələr, bədii obrazlar… arasında olan oxşar və fərqli xüsusiyyətləri də müəyyənləşdirməyə imkan verir. Tutuşdurma və qruplaşdırmanın didaktik əhəmiyyətini nəzərə alan K.D.Uşinski müqayisəni təlimin əsas üsullarından biri kimi qiymətləndirmişdir… Müqayisə hər cür anlamanın, hər cür təfəkkürün əsasıdır. Dünyada hər bir şeyi müqayisə vasitəsi ilə öyrənirik. Əgər o bizə boşaldılması mümkün olmayan və heç şeydən fərqlənməyən bir şey kimi gəlirsə (əgər belə şey mümkündürsə), biz həmin şeyin haqqında heç zaman heç cür fikir yürüdə bilmirik… Müqayisənin anlayış prosesində belə bir əsas mövqe tutması didaktikada onun üsul olduğunu göstərir (182, s.249).

Oxu materiallarının məzmununun müqayisələrlə açılması şüurlu mənimsəmənin, faktlar, hadisələr, obrazlar arasındakı münasibətlərin, səbəb və nəticə əlaqələrinin dərk olunmasını təmin edir. İ.İ.Seçenovun təbiri ilə desək, mənimsəmək, özgə təcrübəsinin məhsulunu öz şəxsi göstəriciləri ilə, fikirləri ilə tutuşdurmaq, müqayisə etmək deməkdir (106, s.441).

Hər hansı əşya və hadisə haqqında fikir bildirmək, onu xarakterizə etmək üçün şagirdlər

aydın düşüncəyə, dəqiq təsəvvürə malik olmalıdırlar. Düşünmək üçün görmək, müşahidə (əyani və xəyali) etmək, qavramaq lazımdır; şüurlu müşahidə etmək lazımdır. Şagird öyrəndiyi cisim və hadisələrdəki oxşarlıq və fərqi aşkara çıxarmalı, onları ümumiləşdirməlidir (176, s.19).

İbtidai siniflərdə müqayisə priyomundan istifadə etməklə şagirdlərin şifahi nitqinin inkişafı məsələsinə gəldikdə deməliyik ki, həm nəzəri, həm metodik ədəbiyyatda "danışıq dili (nitqi)", "şifahi nitq", "rabitəli nitq", "nitqin rabitəliliyi" və s. kimi terminlər işlədilir. Bu terminlərin gah sinonim ifadə olması, gah da onlardan hər birinin müxtəlif məna funksiyası daşıması qeyd edilir. Əvvəla, onu qeyd edək "danışıq dili (nitq)" və "şifahi nitq" terminləri nəzəri dilçilikdə tez-tez qarışdırılır. Bu terminlərin adı altında bəzən tələffüz anlayışı, bəzən də məişət dili anlayışı və s. başa düşülür və müxtəlif hadisələr bir-biri ilə qarşılaşdırılır (173, 175, 99). O, B.Sirotkina bu terminlərin hələlik mübahisəli olduğunu qeyd edir (169, s. 18). Dilçilikdə (71, 80, 99, 177) danışıq dili ilə dialoq nitqini eyniləşdirənlər də vardır. Fikrimiczə "Danışıq dili" termininin məzmununun dəqiqləşdirilməsinə ehtiyac vardır. "Şifahi nitq" termini isə mahiyyət etibarı ilə dəqiqləşdirilməlidir. Ona görə də biz "şifahi nitq" terminini qəbul edənlərə dissertasiyada tərəfdar çıxır və onların fikirlərini müdafiə edirik.

Metodik ədəbiyyatda "nitqin rabitəliliyi" və "rabitəli nitq" terminləri işlədilir. Bu terminlərin hər birinin müxtəlif məna daşıması göstərilir. Bizim fikrimizcə, bu terminlərin hər ikisində fikrin məntiqi ardıcıllıqla, təfərrüatı ilə, anlaşıqlı şəkildə başqalarına çatdırılması ifadə edilir. Elə bu baxımdan da görkəmli psixoloq L.S.Rubinşteyn "nitqin rabitəliliyi" və "rabitəli nitq" terminlərinə eyni mövqedən yanaşır. Nitqin rabitəliliyini "danışan və yazanın fikrinin nitq tərtibini onun dinləyici və oxucu üçün aydınlığı baxımından adekvatlığı" (155) adlandırır.

Bir qrup tədqiqatçı (72, 116, 119, 121) göstərir ki, «rabitəli nitqə», hər hansı fikir daxildir. A.V.Tekuçevə görə, ayrıca götürülmüş cümlə rabitəli nitqin növlərindəndir (174). V.A.Barinovaya görə, rabitəli nitq vahid fikir, tam strukturdur. Rabitəli nitq tematik cəhətdən müxtəlif hissələri birləşdirir, vahid fikir doğurur (88, s.362). Göründüyü kimi, E.A.Barinovanın fikri A.V.Tekuçevin "rabitəli nitq" ayrıca mətn onun ayrı-ayrı hissələri rabitəli nitqdir" fikri ilə üst-üstə düşür. Bununla belə haqlı olaraq, bəzi metodistlər (42, 71, 121, 145, 146) suala ətraflı cavabı, ifadə və inşaları da rabitəli nitq adlandırırlar.

Rabitəli nitqin dialoji və monoloji, şifahi və yazılı növləri olduğu kimi, onda fikrin ifadə üslubu — kitab üslubu, adi danışıq üslubu, bədii üslub, elmi üslub növləri və s. vardır.

Görkəmli alimlər təlimdə əyaniliyin rolu haqqında tutarlı fikirlər söyləmişlər. Təcrübə göstərir ki, materialların məzmununun açılmasında və yadda qalmasında əyanilik nə qədər əhəmiyyətlidirsə, əşyaların, hadisələrin oxşar və fərqli cəhətlərinin üzə çıxarılmasında da bir o qədər faydalıdır. K.D.Uşinski haqlı olaraq yazırdı: "Əyani təlim (kursiv bizimdir – D.R.) elə təlimdir ki, o, mücərrəd təsəvvürlər və sözlər əsasında deyil, uşağın bilavasitə, qavradığı konkret surətlər üzərində qurulur… "çünki"… təlimin bu gedişi, yəni konkretlikdən mücərrədliyə, təsəvvürdən fikrə gedən yol o qədər təbiidir və elə aydın psixi qanunlara əsaslanır ki, onun zəruriliyini inkar etmək təlimdə «ümumiyyətlə» insan təbiətinin və xüsusi uşaq təbiətinin tələblərinə zidd çıxmağa bərabərdir (182, s.226).

Əyanilik şagirdin ağlını inkişaf etdirir. Əyani təlimdə əşya və hadisələr, onların hissələri istər istəməz müqayisə olunur. Təfəkkür prosesləri hərəkətə gəlir. Məlumdur ki, şagirdin ağlını ayrı-ayrı dağınıq biliklər, pərakəndə məlumatlar, faktlar, detallar yox, öyrənilən biliklər, axan informasiyalar sistemi formalaşdırır. K.D.Uşinskiyə görə, ağıl biliklərin yaxşı təşkil olunmuş sistemindən başqa bir şey deyildir. Qazanılan biliklərin sistemləşməsi də öz-özünə baş vermir. O, mükəmməl təlim əsasında yaranır. İ.M.Seçenov uşaq təfəkkürünün bu cəhəti

haqqında yazır: "Uşağın əqli aləmi qrup-qrup biliklərdən daha çox ayrı-ayrı biliklərdən ibarətdir; böyük adamın əqli aləmində isə bütün xarici və daxili sistem cəhətləri ilə təqsim edilmişdir" (183, s. 399).

Oxu materiallarının məzmununun mənimsədilməsində, obrazların hərəkətlərinin qiymətləndirilməsində, baş verən hadisələrin ayrı-ayrı cəhətlərinin bənzərliyinin müəyyənləşdirilməsində, yaxud fərqlərin ayrılmasında, başqa sözlə müqayisəsi prosesində fikrin əmələ tətbiqi aydın görünür. Tədricən şagirdlərdə ümumiləşdirmə prosesi baş verir. Şagirdlərin təfəkküründə gedən sistemləşmə anları pərakəndəlikdən nizamlı biliklərə aparıb çıxarır. Təlimdə bu mühüm cəhəti nəzərə alan K.D.Uşinski yazırdı: "Natamam, rabitəsiz biliklərlə dolu olan baş içərisində hər şey səliqəsiz şəkildə yığılan anbara bənzəyir ki, burada heç anbar sahibinin özü də axtarıb bir şey tapa bilməz" (182, s.355). Ona görə də təlim prosesində mümkün qədər əyaniliyə çox yer verilməlidir. Materialların məzmununun şəkillərlə, digər detallarla əyaniləşdirilməsi, məzmunla bağlı təbiət üzərində müşahidələrin təşkili müəllimdən böyük bacarıq və zəhmət tələb edir. Belə bir əyaniliyə əsaslanmadan nə materialın məzmununun dərindən mənimsənilməsindən, nə alınan biliklərin həyata, təcrübəyə tətbiqindən söhbət gedə bilər, nə də müqayisə priyomundan istifadə etməklə şagirdlərin şifahi nitqlərinin inkişafından.

Müqayisə priyomundan istifadə etməklə şagirdlərin şifahi nitqinin inkişafı üçün nitq situasiyasının yaradılması müstəsna əhəmiyyət kəsb edir. Onu da nəzərə almaq lazımdır ki, təlim prosesində nitq situasiyasının yaradılması metodik vasitə funksiyasını daşıyır. Hər hansı halda isə, şagirdlərə təqdim olunan müqayisə obyektləri, hekayədəki obrazların oxşar və fərqli cəhətlərinin təhlili, xarakterinin açılışı onları danışmağa, məzmunu olduğu kimi nağıl etməyə həvəsləndirir. Sinifdə yaranan yüksək əhval-ruhiyyə şagirdlərin fikri ifadəsinin əsası olur. «Metodik anlayış kimi, nitq situasiyasının mahiyyəti şagirdlərin oxunmuş materialların, baxdıqları şəkillərin məzmununu, təbiət üzərindəki müşahidələrini, gördükləri, qarşılaşdıqları hadisələri, öz şəxsi təcrübələrini və s. olduğu kimi, təbii formada, həyatdakı danışıq tərzinə yaxın ifadə etməsindəndir. Bundan başqa şagirdlərin öz aralarında danışmaları, söhbət etmələri (dialoq) hər dəfə yeni situasiyada baş verir» (136, s. 6). Metodik ədəbiyyatda nitq situasiyasının iki növü göstərilir: təbii situasiya; süni situasiya (127, s.120). Əgər təbii situativ nitq oxunmuş materiallar, təbiət üzərində müşahidələr və s. üzrə fikri ifadələr prosesində yaranarsa, süni situativ nitq məktəbdə təlim prosesində yaranar. Süni situativ nitq məktəbdə keçirilən müxtəlif (sinifdənxaric) tədbirlərdə, müxtəlif mövzularda çıxışlar zamanı baş verir. Nitq situasiyasının hər iki növündə fikrin tematikası başlıca rol oynayır. Tematikanın düzgün müəyyənləşdirilməsi nitqin məzmununu zənginləşdirir, keyfiyyətinin effektliyini artırır. İbtidai sinif şagirdlərinin şifahi nitqinin inkişafında oxu materiallarının məzmununun onların həyatı təcrübələri ilə, müşahidələri ilə tutuşdurularaq nağıletdirilməsi xüsusi yer tutur. Burada tətbiq olunan vasitə və metodların, iş formalarının rəngarəngliyi təmin olunmalıdır.

Araşdırmalar göstərir ki, şagirdlərin idrak fəaliyyətini hərəkətə gətirən inşaların qurulması onları həm məzmun, həm də forma üzərində düşünlməyə məcbur edir. Onu da qeyd edək ki, yazılı inşada düşünmək üçün müəyyən vaxt olduğu halda, şifahi inşada belə imkan yoxdur. Şifahi inşa şagirddən çevik təfəkkür tələb edir. O, məzmunla eyni vaxtda forma (nitq konstruksiyaları) üzərində də düşünür. A.N.Rəhimova görə mövzu ilə əlaqədar söz birləşmələrinin tərtibi, onlar əsasında müxtəlif tipli cümlələrin qurulması, kontekst daxilində işlənən cümlələrin qrammatik-semantik və məntiqi əlaqələrinin gözlənilməsi üzrə müntəzəm iş aparılmalıdır (71, s.180).

Bu baxımdan V.A.Nikolski yazır: "İnşalara hazırlıq prosesində şagirdlərə yalnız məzmunu aydınlaşdırmaqla kifayətlənməməli, həmçinin onu ifadə edəcək söz, söz birləşmələri və cüm-

lələrin qrammatik-semantik cəhətləri də açılmalıdır. İnşa prosesində şagirdlər öz fikirlərini müstəqil və rabitəli ifadə etməli, başqalarının cümlələrini bir-birinin yanına düzməklə məşğul olmamalıdırlar" (150, s. 44-45). Təcrübə göstərir ki, III-IV siniflərdə şagirdlər mühakimə elementli inşalar üzərində də məşq etdirilməlidir. Mühakimə şagirdləri gərgin idrak fəaliyyətinə cəlb edir. O, iş prosesində istər-istəməz müqayisələr aparmalı olur. Təsvir edəcəyi əşyanın hissələrini təhlil-tərkib edir, konkretləşdirir, abstraksiyalaşdırır, ümumiləşdirir… Bu isə öz növbəsində inşanın məzmununa və formasına əsaslı təsir göstərir. Mühakimə şagirddən təşəbbüskarlıq, yaradıcılıq tələb etdiyindən müəllim başlıca diqqəti mövzunun seçilməsinə yönəltməlidir. Məsələn, III-IV siniflərdə şagirdlərə belə mövzular seçdirmək mümkündür: "Qışda və yazda təbiət", "Qışda və yazda quşların həyat tərzi", "Qışda və yazda insanların əməyi", "Keçmişdə və indi kəndlilərin həyatı", "Keçmişdə və indi uşaqların həyatı". Sonra şagirdlərə təsvir edəcəkləri obyektin məzmununu açmaq üçün onlara suallar verməlidir. Mümkün qədər o məzmununa yaxın obyektlərlə tutuşdurulmalı, qarşılaşdırılmalıdır. Belə olarsa, əşya, obyekt, hadisə məzmun və formaca şagirdlərə yaxınlaşır, onların mahiyyətə enmə imkanları artır. Nəticə etibarı ilə şagirdlərin təfəkkürü hərəkətə gəlir, onlarda fikir oyanır, söz demək arzusu baş qaldırır. Bu isə öz növbəsində inşalara mühakimə elementlərinin daxil edilməsi deməkdir.

Oxu materialları informasiya mənbəyidir. Burada təsvir olunan məzmun və məzmunu ifadə edəcək sözlər, ifadələr, cümlələr şagirdlərə hazır şəkildə təqdim olunur. Onlar məzmunu təhlil-tərkib edərək, öz formasını ifadəli və məntiqi ardıcıllıqla şərh etməlidirlər. Bunun üçün mətndə qarşılaşdırılan obrazların xarakterinin, müxtəlif mətnlərin məzmununun tutuşdurulmasına, mürəkkəbliyinə (çətinlik dərəcəsinə), şagirdin yaş və bilik səviyyəsinə uyğunluğuna, mümkün qədər əyaniləşdirilməsinə diqqət yetirilməlidir.

İbtidai siniflərdə müqayisə əsasında şifahi nitqin inkişafı üzrə işlərin optimal təşkili məktəbə gəldikləri gündən şagirdlərin nitqinin xüsusiyyətlərinin, proqram və dərsliklərin imkanlarının, məktəb təcrübəsində qazanılan müsbət təcrübənin nəzərə alınmasını tələb edir. Nitq inkişafı üzrə işlər şagirdlərin bütün fəaliyyəti ilə, müxtəlif fənlərin məzmunu ilə, yerli şəraitlə və s. əlaqələndirilməlidir. Oxu materialları üzrə müxtəlif şagirdin eyni mövzu əsasında qurduqları şifahi hekayələrin müqayisəli təhlilinə və ona münasibət bildirməsinə də diqqət yetirilməlidir. Bu təsvir olunan obyekt haqqında şagirdlərin biliklərini genişləndirmək və dərinləşdirmək, dinləmək, başa düşmək və ona tənqidi münasibət bildirmək, onun zəif və nöqsanlı cəhətlərini tutmaq, müsbət formada nümunə götürmək nəticəsi çıxarmaq və fikrini əsaslandırmaq bacarıq və vərdişləri aşılayır.

Müqayisəyə imkan verən materialların məzmunu ilə bağlı qoyulan suallar şagirdləri düşünməyə, axtarmağa, qarşılaşdırma və tutuşdurmalar aparmağa təhrik etməlidirlər. Sualları belə qruplaşdırmaq mümkündür:

a) mətndəki obrazların xarakterinin, fəaliyyətinin açılmasına, səbəb və nəticə əlaqələrinin müəyyənləşdirilməsinə, oxşar və fərqli cəhətlərin açılmasına xidmət edən suallar;

b) mətndə müqayisəyə imkan verən cəhətləri şagirdlərin təsəvvüründə canlandırmağa, yada salmağa xidmət edən suallar;

c) qarşılaşdırma və tutuşdurmalarla nəticələrin çıxarılmasına, mətnin məzmununun həyatla, uşaqların şəxsi təcrübələri ilə əlaqələndirilməsinə, qruplaşdırılmasına və ümumiləşdirilməsinə xidmət edən suallar.

Hər hansı qrupa daxil olan suallar müəyyən sistemlə verilməli, kontrasların açılmasına zəmin yaratmalı, səbəb və nəticə əlaqələrinin müəyyənləşdirilməsinə, ümumiləşdirilməsinə imkan açmalıdır.

1. Müqayisə priyomundan istifadə etməklə şagirdlərin şifahi nitqinin inkişafı üzrə iş mün-

təzəm və sistemli şəkildə təşkil olunmalıdır.

2. Bu sahədə işlər təsadüfü xarakter daşımamalı, stixiyalı şəkildə aparılmamalıdır.

3. İnşalar tematik xarakterinə görə müxtəlif olmalıdır (39, s.26).

Müqayisə priyomundan istifadə etməklə şagirdləri şifahi nitqin inkişafı sinifdən xaric oxu materialları ilə, Azərbaycan dilinin bütün sahələri ilə (qrammatik, üslubiyyət…) digər təlim fənləri ilə əlaqələndirilməlidir.

Şagirdlərin dildən qazandıqları bilikləri şifahi nitqdə işlətmək bacarıqları aşılanmalıdır. İbtidai siniflərdə şagirdlərə radio, televiziya və kino verlişlərini, qrammofon vallarını, maqnitofon lent yazılarını, müəllimi, dostlarını və s. dinləmək, deyilənləri başa düşmək, öyrənmək bacarıqları verilməli, fikri ifadə prosesində sərbəst vəziyyətə gəlmək, düşündüklərini daxilən saf-çürük etmək, daha dəqiq söz və ifadələr axtarıb tapmaq, başqa sözlə məzmuna uyğun forma seçmək, ifadəliliyi (ton, intonasiya, fasilə, vurğu) gözləmək və s. üzrə bacarıq və vərdişlər aşılamalıdır. Onlarda tədricən özünə nəzarət və nitqinə tənqidi münasibət bəsləmək hissləri tərbiyə olunmalıdır (99, s.8).

Şagirdlərin nitqinin şifahi və yazılı formaları arasındakı qarşılıqlı təsir əlaqələri nəzərə alınmalıdır. Şifahi nitqdə işlənən söz və ifadələr, mürəkkəb nitq konstruksiyaları yazılı nitqdə əks olunur. Yazılı nitq də öz növbəsində şifahi nitqi dəqiqləşdirir, səlisləşdirir, ahəngdarlaşdırır.

Tədqiqat göstərir ki, oxu materialları üzrə müqayisə priyomu əsasında şagirdlərin nitqini inkişaf etdirərkən aparılan işlərə aşağıda göstərilən elementlərdən bu və ya digəri, yaxud, bir neçəsi daxil edilməlidir.

1. Ana dilinin lüğət ehtiyatını mənimsəmək.

2. Nağıletmə prosesində ədəbi tələffüz qaydalarına riayət etmək.

3. Başqasının nitqini dinləmək və başa düşmək bacarıqlarının aşılanması.

4. Fikrin başlanğıcını, dinamik inkişafını və finalını əvvəlcədən başa düşmək bacarıqlarının formalaşdırılması.

5. İki-üç əşyanın xarakterik əlamətlərinin qarşılaşdırılması prosesində söz və ifadələrin dəqiq seçilməsi və gələcəkdə onların kontekst daxilində işlədilməsi.

6. Müqayisəyə imkan verən materialların məzmunu ilə əlaqədar şagirdlərdə mühakimə yürütmək bacarıqlarının inkişafı.

7. Əşya və hadisələrin diferensiallaşdırılması bacarığının formalaşdırılması.

8. Müqayisəyə imkan verən materialların məzmunundakı əsas ideyanın tutularaq əsaslandırılması bacarığının aşılanması və s.

Nitq inkişafı ibtidai siniflərdə oxu təliminin əsas prinsiplərindəndir. Bununla belə müqayisə əsasında şifahi nitqin inkişafı üzrə işlərin özünəməxsus spesifik prinsipləri mövcuddur. Həmin prinsiplər aşağıdakılardan ibarətdir;

1. Şifahi nitqin inkişafı baxımından müqayisəyə imkan verən oxu materiallarının seçilməsi prinsipi.

2. Xarakterlərin məzmununa uyğun dil materiallarının (söz, ifadə və s.) seçilməsi və kontekst daxilində işlədilməsi prinsipi.

3. Məzmuna uyğun ifadəliliyin müəyyənləşdirilməsi prinsipi.

4. Dilə həssas münasibətin tərbiyə olunması prinsipi.

5. Nitqin şifahi və yazılı formaları arasındakı əlaqələrin nəzərə alınması prinsipi.

Bu prinsiplər aşağıdakı tələbləri doğur:

1. Bütün dərslərdə, sinifdənxaric tədbirlər prosesində və tənəffüzdə şifahi nitq üzrə vahid tələblər verilməlidir.

2. Şifahi nitqin inkişafı baxımından oxu materiallarının məzmununa mümkün qədər müqayisə elementləri daxil edilməlidir.

3. Şifahi nitqin inkişafı üzrə iş aparılarkən eyni mətn, (müşahidə obyekti, yaxud müxtəlif mətnlər (müşahidə obyektləri) arasındakı bənzər və fərqli cəhətlərin tam açılmasına çalışılmalıdır.

4. Şifahi nitqin inkişafı üzrə işlər müntəzəm və sistemli aparılmalı, təsadüflüyə yol verilməməlidir.

5. Şifahi nitqin inkişafı baxımından müqayisəyə imkan verən müxtəlif vasitələrdən, təlimin metod və priyomlarından yaradıcı şəkildə istifadə olunmalı, qurulacaq şifahi hekayələrin məzmununa müqayisə və mühakimə elementlərinin daxil edilməsinə çalışılmalıdır.

6. Şifahi nitqi inkişaf etdirmək üçün şagirdlərin nitqinin xüsusiyyətləri, rəngarəngliyi nəzərə alınmalıdır. Bunsuz şifahi nitqin inkişafı sahəsindəki işləri düzgün planlaşdıraraq sistemli iş aparmaq çətindir.

7. Şifahi nitqin dəqiqliyinə, səlisliyinə, yığcamlığına, ifadəliliyinə, obrazlılığına və emosionallığına xüsusi diqqət yetirilməlidir.

8. Şifahi nitqin inkişafı üzrə aparılan işlər şagirdlərin idrak fəaliyyətinin inkişafına yönəldilməli, onlara təhlil-tərkib aparmaq, müqayisə etmək, «tədqiq etmək», ümumiləşdirmək və məntiqi mühakimə yürütmək, öz nitqinə nəzarət və tənqidi münasibət bəsləmək bacarıqları aşılanmalıdır.

Müqayisə priyomundan istifadə etmklə şagirdlərin şifahi nitqinin inkişafı üzrə işlər elmi cəhətdən əsaslandırılmalı, bu sahədə aparılacaq işlərin vasitə və yolları düzgün müəyyənləşdirilməlidir. Nitq prosesində dilin bütün mexanizmi, mürəkkəb və rəngarəng əlaqələr sistemi hərəkətə gəlir. Nitqlə təfəkkür qarşılıqlı əlaqədə, dialektik vəhdətdə olduğundan hər hansı mətn üzrə müqayisə xarakterli iş apararkən şagirdlərin şüurunda təsvir ediləcək məzmunun obrazı canlandırılmalı, onun ifadəsi üçün canlı, emosional şərait yaradılmalıdır. Fikrin daxili nitq zəminində xarici nitqə hazırlanmasına və məntiqi şəkildə ifadəsinə çalışılmalıdır. İbtidai siniflərdə nitq inkişafı üzrə işlərin səmərəli təşkili şagirdlərin müşahidə qabiliyyətlərini inkişaf etdirməklə, onlarda təhlil-tərkib etmə, müqayisə aparma, mücərrədləşdirmə və ümumiləşdirmə bacarığı formalaşdırır. Bütün bunlar qurulacaq şifahi inşaların ideya və məzmunca zənginliyini təmin edir.

**Məqalənin aktuallığı.** İbtidai siniflərdə müqayisə priyomundan istifadə etməklə şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsinin vacibliyini nəzərə alaraq məqalənin aktual əhəmiyyət daşıdığı xüsusi vurğulanmalıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə məktəb təcrübəsində aparılmış tədqiqatların nəticələrinə əsasən, ibtidai siniflərdə müqayisə priyomundan istifadə etməklə şifahi nitqin inkişafının əsas istiqamətləri müəyyənləşdirilir, təlimdə əyaniliyin rolu görkəmli alimlərin əsərlərində konkret faktlarla göstərilir, müqayisəyə imkan verən materialların məzmunu ilə bağlı qoyulan suallar qruplaşdırılır və hər bir qrupa daxil olan suallar sistemləşdirilir, eləcə də şifahi nitqin inkişafı üzrə işlərin özünəməxsus spesifik prinsipləri sadalanır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Rəhimov A.N. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı: Tərcüman, 2003,

406 s.
2. Rəhimov A.N. Azərbaycan dili dərslərində monoloji nitqin inkişafı. Bakı: Maarif, 1998.
3. Rəhimov A.N. İbtidai siniflərdə oxu dərslərində rabitəli nitqin inkişafı. Bakı: Çaşoğlu, 1998, 165 s.
4. Rəhimov A.N. İbtidai siniflərdə oxu təlimi. Bakı: Çaşoğlu, 1998, 125 s.
5. Kazımov N.M. Müqayisə priyomundan istifadə edilməsi. Bakı: Azərnəşr, 1964.
6. Əhmədov B.A. Ana dili dərslərində şagirdlərin nitqinin inkişaf yolları. Bakı: Maarif, 1967, 204 s.
7. Əhmədov B.A. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı: Maarif, 1974, 57 s.
8. Əhmədov Ə.M. Şagirdlərin nitqindəki üslub səhvləri və onların aradan qaldırılması üzərində iş. Bakı: Maarif, 1975.
9. Tağıyev B. İbtidai sinif şagirdlərinin şifahi nitqinin inkişaf etdirilməsinin imkan və yolları (folklor nümunələri əsasında): Ped.ü.fəls.dok. …dis. Bakı, 1992, 147 s.

**С.А. Рагимова**

## Педагогические основы развития устной речи с использованием сравнительного приема

### Резюме

В статье рассматриваются педагогические основы развития устной речи с использованием сравнительной приемы. На основании результатов исследований, проведенных в школьной практике, показана педагогическая значимость определения содержания, необходимых средств и способов работы по развитию устной речи учащихся. Проблема развития устной речи учащихся анализируется с помощью сравнительного произношения в начальной школе.

**S.A. Ragimova**

## Pedagogical basics of oral speech development using a comparative priori

### Summary

The article examines pedagogical of the basics of oral speech development using a comparative prism. Based on the results of research conducted in school practice, the pedagogical importance of identifying the content, necessary means and ways of working on the development of students' oral speech is demonstrated. The problem of developing students' oral speech is analyzed using a comparative pronunciation in primary school.

**Redaksiyaya daxil olub:** 01.11.2019